**UOT 1.09**
**DOI:10.30546/sw.2023.2(41).60**

# XX ƏSRİN ƏVVƏLLƏRİ AZƏRBAYCAN BƏDİİ ƏDƏBİYYATINDA MAARİFÇİ-REALİST İSTİQAMƏTİN YARANMASINI ŞƏRTLƏNDİRƏN AMİLLƏR

**Nicat Məmmədov**
Fəlsəfə üzrə fəlsəfə doktoru, dosent
AMEA Fəlsəfə və Sosiologiya İnstitutu, **Azərbaycan**
nicatmk@mail.ru
https://orcid.org/0009-0007-0452-4759

**Xülasə.** Təqdim olunmuş məqalədə Azərbaycanın fəlsəfi, ictimai-siyasi və ədəbi fikrinin zəngin, həm də mürəkkəb dövrlərindən biri olan XX əsrin əvvəllərində Azərbaycanda sənayenin inkişafı, sinfi ziddiyyətlərin kəskinləşməsi və milli azadlıq uğrunda mübarizələrin geniş vüsət alması ilə səciyyələnməsi gündəmə gətirilir. Həmçinin bu mərhələnin Azərbaycanın ictimai-siyasi, ədəbi-mədəni həyatında öz mürəkkəbliyi ilə seçilməsi, o cümlədən Azərbaycanın ictimai fikri və mədəni həyatında önəmli rol oynamış maarifçi-realist istiqamətin spesifik xüsusiyyətləri tədqiq olunur.

**Məqsəd:** XX əsrin əvvəlləri Azərbaycan bədii ədəbiyyatında maarifçi-realist istiqamətin yaranmasını şərtləndirən ictimai-siyasi, tarixi və mədəni amilləri araşdırmaq.

**Metodologiya:** Müqayisəli - sistemli yanaşma, tarixilik metodu.

**Elmi yenilik:** Azərbaycanın ictimai-siyasi və mədəni həyatında öz spesifik xüsusiyyətləri ilə önəmli rola malik maarifçi-realist istiqamətin XX əsrin əvvəllərində Azərbaycan ictimai-fəlsəfi fikrinin inkişafına təsirinin tədqiqi.

**Acar sözlər:** Maarifçi-realist, ictimai-siyasi, düşüncə, milli-mənəvi, özünüdərk, demokratik, təşəkkül.

## Giriş / *Introduction*

Azərbaycan fəlsəfi və ictimai-siyasi fikir tarixində XIX əsrin axırları, XX əsrin əvvəlləri xüsusi mərhələ təşkil edir. XIX əsrin sonu ədəbiyyat tariximizdə tədqiqatçılar tərəfindən maarifçi realizmin inkişafı, tənqidi realizm və romantizmin təşəkkül dövrü və yeni janrların yaranması (dram, povest), təzə istiqamətlərin formalaşması kimi dəyərləndirilir. 70-90-cı illərdə isə maarifçi realizmin aparıcı metoda çevrilməsi yeni ədəbiyyatın və yeni qəhrəmanların zəngin qalereyasını yaratdı. Azərbaycan dramaturgiyasının banisi Mirzə Fətəli Axundov ilə bədii ədəbiyyatda inkişaf edən müasirləşmə hərəkatı ədəbi-bədii düşüncədə sabit təməllər formalaşdırdı. M.F.Axundovla C.Məmmədquluzadə, “Təmsilat” və “Əkinçi” ilə “Molla Nəsrəddin” arasındakı dövr özündən əvvəlki və sonrakı fəlsəfi, ədəbi-tarixi mərhələlərlə əlaqələri baxımından çox aktualdır.

Vahid məqsədə - Vəhdəti-vücuda, Kamil insan tərbiyəsinə doğru gedən yolun rəmzi normativlərindən uzaqlaşmaq, real həyata - onun həqiqətlərinə daha çox yaxınlaşmaq dövrün bədii yaradıcılıq nümunələrində maarifçi realizmin əsas xəttini təşkil edirdi. Ağıldan, rasional düşüncədən kənar olan hər şeyə tənqidi yanaşmaq, yeni insan tərbiyəsində öyüd-nəsihətə deyil, tənqidə üstünlük vermək maarifçi realizmin başlıca estetik funksiyası kimi diqqəti cəlb edir. Azərbaycan bədii ədəbiyyatında bu dövrdə maarifçi realizmin yaranmasını şərtləndirən amillər feodalizm ideologiyası və idarəçiliyinə qarşı formalaşmaqda olan yeni dünyagörüşü idi. Ağlına və şəxsi keyfiyyətlərinə görə fərqlənən insanın ön plana çıxması insan və cəmiyyət münasibətlərinə yeni baxış formalaşdırırdı. Bu isə öz növbəsində Yeni dünya ilə Köhnə dünya arasındakı mövcud konfliktin qəlizləşməsinə səbəb olurdu. Avropada XVIII əsrdən, Azərbaycan bəbii ədəbiyyatında isə XIX əsrin başlanğıcından yaranmağa başlayan, əsrin ikinci yarısında artıq öz təsdiqini tapan maarifçi realizmin irəli sürdüyü problemlər ədəbiyyatımızda XX əsrin başlanğıcının da aktual problemləri kimi diqqət mərkəzində idi.

**Əsas hissə / *Main Part***

XX əsrin əsrin əvvələrində Azərbaycanda fəlsəfi, ictimai-siyasi, ədəbi-bədii, nəzəri-estetik düşüncə tərzi öz fərqli çalarları ilə diqqət çəkir. Lakin ictimai-siyasi, iqtisadi sahələrdə olduğu kimi, mədəni həyatda da yaranan canlanmanı yalnız XX əsrə aid etmək doğru olmazdı. XIX əsr Azərbaycan tarixində mütərəqqi yeniliklərə meyillərin meydana çıxması və genişlənməsi ilə izlər qoymuşdu. Bu, Azərbaycanda yaranan bir çox ədəbi-bədii əsərlərdə öz əksini tapmaqda idi.

XIX əsrin sonu ədəbiyyat tariximizdə maarifçi realizmin inkişafı, tənqidi realizm və romantizmin təşəkkül dövrü və yeni janrların yaranması (dram, povest), təzə istiqamətlərin formalaşması kimi dəyərləndirilir. 70-90-cı illərdə maarifçi realizmin aparıcı metoda çevrilməsi yeni ədəbiyyatın və yeni qəhrəmanların zəngin qalereyasını yaratdı. Azərbaycan dramaturgiyasının banisi Mirzə Fətəli Axundov ədəbiyyatda vüsət götürən müasirləşmə hərəkatı ilə ədəbi-bədii düşüncədə sabit təməllər formalaşdırdı. M.F.Axundovla C.Məmmədquluzadə, "Təmsilat" və "Əkinçi" ilə "Molla Nəsrəddin" arasındakı dövr özündən əvvəlki və sonrakı ədəbi-tarixi mərhələlərlə əlaqəsi baxımından müxtəlif tədqiqatçılar tərəfindən öyrənilmişdir. "Mütəxəssislər iki əsrin parçaladığı, paraladığı bu epoxanı tam halda, bütövlükdə səciyyələndirməyə təşəbbüs göstərmiş, bəzən ona passivlik, sakitlik, hətta "yetimlik" (M.K.Ələkbərli) dövrü kimi birtərəfli qiymətlər versələr də, həmin illərin "ara mərhələ", "keçid və hazırlıq dövrü" olması həqiqəti, demək olar ki, heç kəsdə ciddi şübhə doğurmamışdır" [1, s. 146-147]. Belə bir növbələşmə bədii ədəbiyyatımızda yeni üfüqlər açdı. Xüsusən Şərq ədəbiyyatının tərkib hissəsi olan Azərbaycan ədəbiyyatının romantik poeziyadan realist nəsrə doğru istiqamət götürməsi ilə yaranan yeni ədəbiyyat məişət məsələlərini və ya cəmiyyətdə baş verən ictimai-siyasi prosesləri yeni ustalıqla təsvir edirdi. Əsrlərin kəsişməsində yaranan nəsr nümunələrinin qəhrəmanları yeni dünyaya açılan, xarici ölkələrdə təhsil alıb məmləkətinə işıq gətirmək niyyəti ilə dönən və keçmişin ciddi təkanları ilə qarşılaşan ziyalı obrazları və ya xalqın "öz yağında qovrulan" sadə, avam nümayəndələri idi. Bu mənzərə M.F.Axundovun "Əgər xalq tərbiyə edilməzsə və bütün camaat savadlı olmazsa, çəkdiyimiz bütün zəhmətlər heçə-puça çıxacaqdır" [2, s. 353] düşüncəsini yada salsa da, XIX əsrin son onilliklərində Azərbaycanda teatrın yaranması, "Əkinçi"nin çapı, yeni tipli məktəblərin fəaliyyətə başlaması, dünya ədəbiyyatı ilə inteqrasiyanın güclənməsi və s. kimi mühüm hadisələr realist nəsrin təşəkkül və təkamülünə geniş imkan yaradırdı. Cəmiyyətdə gedən dəyişilmə prosesləri insanların dünyagörüşünə əsaslı təsir bağışlayır və yeni münasibətin formalaşması istiqamətində Maarifçilik aparıcı dünyagörüş kimi diqqəti cəlb edir.

Vahid məqsədə - vəhdəti-vücuda, kamil insan tərbiyəsinə doğru gedən yolun rəmzi normativlərindən uzaqlaşmaq, real həyata - onun həqiqətlərinə isə daha çox yaxınlaşmaq bədii ədəbiyyatda maarifçi realizmin əsas xəttini təşkil edirdi. Ağıldan, rasional düşüncədən kənar olan hər şeyə tənqidi yanaşmaq, yeni insan tərbiyəsində öyüd- nəsihətə deyil, tənqidə üstünlük vermək maarifçi realizmin başlıca estetik funksiyası kimi diqqəti cəlb edir. Əslində, maarifçi realizmin yaranmasını şərtləndirən amillər feodalizmin ideologiyası və idarəçiliyinə qarşı formalaşmaqda olan yeni dünyagörüş idi. Əqlinə və şəxsi keyfiyyətlərinə görə fərqlənən insanın ön plana çıxması insan və cəmiyyət münasibətlərinə yeni baxış formalaşdırırdı. Bu isə öz növbəsində Yeni dünya ilə Köhnə dünya arasındakı mövcud konfliktin qəlizləşməsinə səbəb olurdu. Avropada XVIII əsrdən, Azərbaycanda isə XIX əsrin başlanğıcından yaranmağa başlayan, ikinci yarısında isə öz təsdiqini tapan maarifçi realizmin irəli sürdüyü problemlər ədəbiyyatımızda XX əsrin başlanğıcının da aktual problemləri kimi diqqət mərkəzində idi.

Maarifçi ədəbiyyat çoxjanrlılığı ilə diqqəti cəlb edir. O, yeni dünyagörüşü həm də təzə janrların ədəbiyyata gətirilməsi ilə nümayiş etdirir. Bu istiqamətin təmsilçiləri oxucuların dünyanı, aid olduqları cəmiyyəti anlamağa, dərk etməyə yönəldir, ədəbi qəhrəmanlarını da daha çox insanlara tanış gələ biləcək xüsusiyyətlərlə təqdim edirdilər. Maarifçi realizmin nümayəndələri hekayələrində qəhrəmanı real həyatdan kənarda axtarmırdılar.

"XX əsrin əvvəllərində Azərbaycan realist yazıçılarının bir hissəsi mətbuat, nəşriyyat ətrafında toplanmışdı, bir hissəsi də daha çox səhnə, teatr sahəsində (N. Vəzirov, Ə. Haqverdiyev, U. Hacıbəyli və b.). Üçüncü qisim yazıçılar isə maarif, təlim-tərbiyə mövzuları üzrə, uşaq ədəbiyyatı sahəsində çalışırdılar. Bu müəllim-yazıçıların bütün yaradıcılıq fəaliyyəti məktəb, maarif tələblərinə uyğunlaşdırılmışdı. Həmin yazıçılar qələmləri ilə məktəbdəki əməli müəllimlik fəaliyyətlərini

tamamlayırdılar. Ədiblərimiz maarifin, müəllimin, məktəbin həlledici işini intibah yolunda ən böyük vasitə olduğunu düşündükləri üçün məktəb işinə böyük əhəmiyyət verir və bu yolda var qüvvələri ilə çalışırdılar. Buna görə də həmin yazıçıların yaradıcılığında maarif uğrunda, məktəb, tərbiyə uğrunda mübarizə başlıca yer tutur” [3, s. 427].

Azərbaycan ədəbiyyatında maarifçi realizm nəsrin kiçik janrlarından olan hekayənin inkişafında əhəmiyyətli rol oynamışdır. Maarifçi realist hekayə ustaları kimi N.Nərimanov, N.Vəzirov, Ə.Haqverdiyev, S.S.Axundov, A.Şaiq, A.Səhhət hekayə janrında qələmə aldıqları əsərləri vasitəsilə sosial, siyasi və mənəviyyatla bağlı problemləri işıqlandırır və onların həlli yolunda savadsızlığa qarşı çıxırdılar. “Azərbaycanda milli Maarifçiliyin tarixi funksiyası... realizmin təşəkkülündə iştirakı və xidməti ilə müəyyənləşir” [4, s. 196]. Cəmiyyətin və insanların cəhalət və nadanlığının əsasında dayanan cahilliyə qarşı çıxanlar maarifləndirmə yolunda ilk addımlarında insanları xurafata sürükləyən etiqad və inamları ilə - “pirlərlə”, “nadanlıqla” üz-üzə gəlirdilər. Bu qarşılaşma N.Nərimanovun “Pir”, A.Şaiqin “Pirin kəraməti”, Ə.Haqverdiyevin “Pir” , “Seyidlər ocağı” hekayələrində də təsvir edilir. N.Nərimanovun “Pir” hekayəsi ilk dəfə 1917-ci ildə “Açıq söz” qəzetində nəşr olunmuşdur. Hekayənin məzmunu ilk baxışda Məşədi Allahverən və onun ailəsi ətrafında cərəyan etsə də, müəllifin əsas hədəfi Molla Cəfərqulunun çirkin niyyətini həyata keçirə bilmədiyi yerdə yaratdığı saxta pir və ona pənah gətirənlər idi. “Z” və “Ə” kəndlərinin ortasında yerləşən, yayın istisindən və günəş şüalarından insanları qoruyan böyük qoz ağacının “müqəddəslik” qazanması Molla Cəfərqulunun mollalığı və mərsiyəxanlığına yeni bir status - pir sahibi olmağı da əlavə etdi. Müəllif cəhalətə qarşı oxumuş, ziyalı birindən deyil, Gülbadamın anası Nənəcan obrazından istifadə edir. Nənəcan xalq müdrikliyinin timsalı kimi, hekayədə müsbət xarakteri ilə seçilir, “özünə görə fəlsəfəsi var”dır, qızını da bu ruhda böyüdür. Gülbadamın tarixçəsini bildiyi pirdən daha çox, həkimlərdə nicat axtarmasının bir səbəbi də anası idi. Hekayədə bu iki qadın və Molla Cəfərqulu kimilər ayrılırdı: “Zatən bu mahalın kişiləri, arvadları bir-birinə oxşayırdılar: surətdə yox, ruh cəhətcə bunlar bir-birindən uzaq getməmişdilər” [5, s. 205]. Nənəcanın qızına verdiyi nəsihət Molla Cəfərqulu kimilərin öyüdündən çox-çox üstün idi. N.Nərimanov hekayənin sonluğunu da Gülbadamın cəsarətli çıxışı ilə verir: “Mən indi bu hində bir Allahdan başqa kimsəni böyük bilməyirəm. Haman Allahdır məni indi danışdıran. Kimsə mənim ağzımı yuma bilməz” [5, s. 229]. Gülbadamın bütün cəsarətini toplayıb cəmiyyətə, ya pirə qarşı üsyanı və doğruları söyləməsi maarifçi realizmin tənqidlə tərbiyə etmək ideyası ilə üst-üstə düşür. Nənəcanın və sonrakı məqamlarda Gülbadamın köhnə dünyaya qarşı çıxması İ.Kantın “öz ağlından istifadə etmə cəsarəti göstər” prinsipi tarixin düzəni dəyişdikcə yeni dərketmə və davranma şəraitini formalaşdırdı. Maarifçi-realizmin təmsilçiləri əsərlərində gənc nəslin nümayəndələrini yeni həyata, yeni dünya düzəninə hazırlayırdı. Bu istiqamət savadsızlığın aradan qaldırılması və mənəvi-əxlaqi keyfiyyətlərin qorunması hesabına yarana bilərdi. Maarifçi realistlər iqtisadi məqamları, sinfi ayrı-seçkiliyi, zümrə və təbəqə fərqini gündəmə gətirməkdən daha çox, cəmiyyəti maarif işığı ilə inkişafa aparacaqlarına inanırdılar. N.Nərimanovun “Pir” hekayəsində də “Z” və “Ə” kəndlərinin kəsişdiyi yerdə qurulan Pir cəhalətin və cahilliyin simvolu kimi təqdim edilir. Gülbadamın “...bir Allahdan başqa kimsəni böyük bilməyirəm” fikri maarifçi-realizmin dinə münasibətini də izah edir. Yaşar Qarayev bu məntiqi belə davam etdirir: “XIX əsrin son rübünün maarifçiləri ağılla yanaşı, həm də Allahı qəbul edir, köməyə çağırır, dini fanatizmə qarşı mübarizədə dinin özünün ən müqəddəs silahı ilə - Quranla da silahlanırlar... XX əsrin maarifçiliyi də dini tərbiyəni, ümumiyyətlə, tərbiyənin tərkib hissəsi kimi qəbul və təsdiq edir” [4, s. 186].

N.Nərimanovun diqqət çəkən hekayələrindən biri də 1915-ci ildə “Açıq söz” qəzetində dərc olunan “Bir kəndin sərgüzəşti”dir. Hadisələrin baş verdiyi məkan olaraq iki məhəlləli Qafqaz kəndlərindən biri seçilir. Müəllifin Namləsüm (Müsəlman) və İnəmre (Erməni) adlandırdığı məhəllələrin əhalisi bir-birindən fərqlənirdi: “Bu iki məhəllə bir-birinə oxşamadığı kimi, bunların camaatı da bir- birinə oxşamırdı, yəni hər məhəllənin xalqı xüsusi bir yolla dövran sürürdii. Namləsüm məhəlləsinin camaatı ata-babadan yerli-tavanlı olub, günlərini müttəsil kefdə, eyş və işrətdə keçirən bir xalq idi... biləks İnəmre məhəlləsinin camaatı zəhmətkeş bir camaat idi. Bura adamları vaxtında yerlərini əkər və vaxtında biçər, tez-tez şəhərə gedər, alver edər və şəhərdə bir çox şeylər öyrənib daima tərəqqidə bulunardılar.

Namləsüm camaatı da şəhərə gedərdi, fəqət bu camaata məxsus olanlar şəhərdən gələndə ancaq çayxanalarda, qəhvəxanalarda görüb-eşitdiklərindən dəm vurardılar” [5, s. 230].

Təbii ki, burada müəllifi düşündürən bu iki məhəlləni bir-birindən fərqlənməsi deyil, alt qatda yatan əsas məğzin incə detallarla verilməsidir. Şəhərlərdə məktəbin az tapıldığı vaxt İnəmre məhəlləsinin camaatı məktəb açmaqla maraqlanırdılar, amma Namləsüm camaatı bu məsələyə müsbət yanaşmırdı. Hər hansı bir məsələnin müzakirəsinə İnəmre məhəlləsi vəkilini göndərəndə, Namləsüm camaatı Əmini göndərərdi ki, elə əsaslı fərq də burada üzə çıxırdı. Gerçək naqisliyə qarşı etiraz etmək, insanları düşündürmək üçün başqalarının onlardan daha qabaqda olduğunu vurğulayıb rəqabət yaratmaq maarifçi-realizmin aparıcı cizgilərindəndir. Burada gerçək olan yeniləşən dünyanın gətirdiyi elmə və təhsilə doğru üz tutmaq olduğu halda, Namləsüm camaatı keçmişə bağlı qalmağı seçirdi, yəni gerçəkliyə etiraz edirdi. Namləsüm camaatını haqqı və hüququ uğrunda mübariz görmək istərkən, bu camaat taleyini 70-80 yaşlarında savadı, təhsili olmayan Əmiyə tapşırmışdı. Hamıdan yaşlı olan Əmi folklor mədəniyyətində rast gəldiyimiz müdrik qoca, nurani ağsaqqal funksiyasını yerinə yetirmirdi, o, gündən-günə artan nüfuzunu camaata sələmə pul verməsi, starşina, pristavla çənə-boğaz etməsi ilə qazanırdı. Əks tərəfin – İnəmre məhəlləsinin də Əmiyə münasibəti yaxşı idi: “İnəmre məhəlləsirin camaatı da Əmidən çəkinirdi və özü də bunu guya sevirlər, buna hörmət edirlərdi. Fəqət ürəklərində buna gülür və çox şad olurdular ki, Namləsüm camaatının arasında Əminin nüfuzu gündən-günə artır. Şad olmaqlarına da səbəb var idi. İnəmre məhəlləsinin camaatı gözüaçıq camaat idi. Fikir edirdi ki, bir camaatın işini ancaq dünyadan xəbərdar, elmli bir adam yaxşı apara bilir. Əmi isə öz kəndindən başqa özgə aləm görməmiş, bir şeydən baş çıxarmazdı” [5, s. 232]. Bu məqamda “Bir kəndin sərgüzəşti” hekayəsində ironiya önə çıxır. Müəllif bu ironik yanaşma hesabına ciddi sosial problemlərə diqqət çəkir. Cahilliyin yaratdığı patologiya mütləq şəkildə “karlığa” və “korluğa” gətirib çıxarmalıydı. İnəmre camaatının da Əmiyə qarşı “isti münasibəti” və ya “ikiüzlülüyü”nü və ya Namləsüm camaatının bütün taleyini Əmiyə bağlamasına ironiya edən müəllif oxucuya mənəvi təsir edir, mövcud situasiyaya qarşı tənqidi münasibətini göstərir. İroniya mətnin alt qatında, daxili modusla əlaqəli olur. N.Nərimanovun “Bir kəndin sərgüzəşti” hekayəsinin qəhrəmanları nə Əmi, nə dəyişən kəndxudalar deyil, burada aparıcı xətt iki məhəllə arasında gedən səsli və səssiz (gizlicə) qarşıdurmadır ki, müəllif Namləsüm və İnəmre camaatını bütünlükdə vahid bir obraz kimi təqdim edir. Müəllif hər iki məhəllənin adında da poetik fiqurdan istifadə edir, incə detallarla kiminin dədə-baba torpağından, kimininsə tədbirindən və hiyləsindən söz açır. Hekayənin finalında kəndxudanın “doğrudan da, bilmədi bu camaat (Namləsüm camaatı), nəyə qulluq edir, hansı allaha səcdə edir, hansı ağlın sahibidir” fikirləri təhkiyəni açıq finalla yekunlaşdırır və oxucunu qoyulan suallar ətrafında düşünməyə vadar edir. Burada qəhrəmanların (məhəllənin) və hadisələrin gələcəyi ilə bağlı heç bir məlumat, ipucu verilmir. Bədii mətnin struktur komponentlərindən olan final yazıçı təxəyyülündə əsərin əxz olunmasında, dəyərləndirilməsində əsaslı rol oynayır. İ.P.Qalperin yazırdı: “Mətni o zaman tamamlanmış hesab etmək olar ki, müəllif niyyəti baş tutur [6, s. 131]. “Bir kəndin sərgüzəşti” hekayəsində müəllif niyyətini açıq bəyan etmir və finalda problemin həll olunmaması deyil, bu “xəmirin hələ çox su aparacağı” gerçəyi ilə maarifçi realizmə aid yaradıcılıq nümunələrinin əksəriyyətində nümayiş olunan açıq finalı qaçınılmaz edir. N.Nərimanov kimi ictimai-siyasi liderin və ədibin belə bir mövzuda açıq finaldan istifadə etməsini XX əsrin sonlarında yaşadığımız acı itkilərimizə onun uzaqgörənliklə işarə verməsi kimi izah edə bilərik.

Azərbaycan ədəbiyyatında faciə janrında ilk nümunənin “Müsibəti- Fəxrəddin”in müəllifi Nəcəf bəy Vəzirovun XIX əsrin sonlarında qələmə aldığı “Ağıçı” ( 1875), “Mənim vaqiəm” (1876), “Paho?” (1884) hekayələri ilə müasiri olduğu zamanın və cəmiyyətin real cizgilərini yaradır. Cəhalət və nadanlığa qarşı hələ qurucusu olduğu “İmdadiyyə” cəmiyyətindən başlayan N.Vəzirov istər dramaturgiyada, istərsə də nəsrdə maarifçi-realist dünyagörüşü davam etdirir. Bu baxımdan ədibin “Ağıçı” hekayəsinin qəhrəmanı yalnız Bədircahan deyildi, kor Ümmi, piçalaqlı Anaxanım, Göhər və bilmədiyimiz neçə-neçə qadının cəmiyyətdəki mövqeyi ağıçı kimi müəyyənləşmişdi. “Ağıçı”dan fərqli olaraq, “Mənim vaqiəm”də yazıçının tənqid hədəfi şişpapaq hacılar, sövdəgərlər, xan, bəylər, mollalardır. “ - Ay ağa, Allaha bax! A bəy, Allaha bax! A sövdəgər, Allaha bax! Molla, amandır!” - deyən obrazın yuxuda Ş. şəhərini gəzərkən aldığı təəssüratla cəmiyyətin ümumi mənzərəsini yaradırdı. Maarifçi-realist olaraq N.Vəzirov gənc nəslə “elm və ağıl dalınca getməyi” tövsiyə edir,

çünki "zəmanə ağıl və elm zamanıdır" [7, s. 337]. Bu hekayədə diqqətçəkən məqamlardan biri də səyahət motividir ki, yeni dünyanın "dəyişən sərhədləri"ndə səyahətin anlamı fərqlilik qazanır. Həyat hadisələrini ideallaşdırmadan, real dünyanın insanlarını yaşadıqları bütün problemləri ilə bir bütöv halında təsvir etmək "Mənim vaqiəm"də də öz əksini tapır. Xanın balalarını "məzlum balalar" adlandıran təhkiyəçi bunun səbəbini onların "elmsiz, ədəbsiz, tərbiyəsiz" olmasında görür. N.Vəzirovun məsələyə yanaşma texnikası bir qədər fərqli alınır, hekayədə xanın yanlış tərbiyəsi birbaşa ittiham edilmir, amma nəticələri sadalanır. Ş şəhərinin sövdəgərləri, əla şişpapaq hacıları və mollaları da bir-birinə bənzəyir. Köhnə dünyaya meydan oxuyan qəhrəmanın "Millət dərdi və təəssübü çəkən, qəm yemə! Nə qədər yaramız artsa, o qədər bərkişərik. Namərd də əgər milləti satsa, yenə biz birləşərik... Atıl kənara, hacı, oğlundan, qızından... Əgər xoruldamaq istəyirsən, əgər rahat olmaq istəyirsən, buyur qəbrə, çoxdan köhnəlmisən, bizi bağışla... [7, s. 338] bu fikirləri həm yeniliyə doğru mübarizəyə çağırır, köhnənin, dünənin isə məhv olacağına işarə edirdi. Hekayədə molla Mirzə Əlif haqqında verilən məlumat onu Y.V.Çəmənzəminlinin "Cənnətin qəbzi"ndəki usta Ağabalanı cənnətə aparacağına söz vermiş Əliəsgər ağa ilə eyniləşdirir: "Tamam şəhər əhli bilir ki, mərhum Mirzə Əlif dua zoruna ona qulaq asan müsəlmanları (ancaq onları) cənnətə aparmağa söz verərdi" [7, s. 339]. Dövrünün ictimai-siyasi düşüncə tərzinin geriliyinin bir nümunəsi kimi, Nəcəf bəy Vəzirovun iç üzünü açıb göstərmək istədiyi "qəhrəmanlarından" biri də "Paho?" hekayəsindəki Kərbəlayıdır. Müəllif müqəddəs sayılan Kərbəlanı ziyarət edib el arasında mömin kimi tanınan birinin oğurluqla məşğul olmasını fələyin çərxi ilə bağlayır. "Paho?" hekayəsi həcmcə kiçik, amma informasiya daşıyıcılığı ilə fərqlənən nəsr əsəridir. Dindar müsəlmanların hər cür nəfsdən uzaq durmaları vacib olan bir ayda - Ramazan ayında da oğurluq etməyə maraqlı olan obraz öz dili ilə özünü ifşa edir : neçə vaxtdan bəri heç bir şey oğurlaya bilməmişəm, çünki bu təzə naçalnik gələndən bəri əlimiz-ayağımız kəsilibdir, bir parça ətə həsrət qalmışıq" [7, s. 340]. Yeni hakimiyyətdən şikayəti yalnızca əl-qolunun bağlanması və oğurluq edə bilməməsini faciə kimi təsvir edənlərin Vətən, millət anlayışı, təbii ki, olmayacaqdı. Açıq çağırışlar şəklində olmasa da, maarifçi realistlərin qələmə aldığı hekayələrdə bütün diqqət Vətən və məmləkət anlayışlarından uzaq qalmırdı. Bu baxımdan professor Tahirə Məmmədin "XX əsr Azərbaycan maarifçiliyinin aparıcı xüsusiyyəti onun milliyyətçiliyidir. Eyni zamanda, XIX əsr Osmanlı ədəbiyyatının maarifçilik (aydınlatma) ilə xarakterizə olunan romantizmi də millət, vətən, ümmət şüurunu aşılaması ilə fərqlənirdi. XX əsrin başlanğıcının maarifçi realizmi XIX əsrin 70-90-cı illərinin Azərbaycan maarifçi realizminin təkamülü nəticəsində formalaşmışdı" [8, s. 43] qənaəti bizim üçün də məqbul hesab edilir. XX əsrin əvvəlində "Füyuzat" jurnalında və "Yeni Füyuzat" dərgisində türk müəlliflər ardıcıl çıxış edirdilər. "Nicat" cəmiyyətinin dəstəyi ilə Osmanlı dramaturqlarının əsərlərinin tamaşaya qoyulması, Azərbaycan ziyalılarının İstanbul mühiti ilə sıx əlaqəsi eyni mədəniyyət və dil ənənələrinin daşıyıcısı olan iki bölgə arasında yaxınlığı xeyli artırmışdı. İstər Osmanlı, istərsə də Azərbaycan ədəbiyyatında maarifçilik milli dünyagörüşdən və real həyat şərtlərindən qidalanırdı. "Füyuzat" məcmuəsində "Ədəbiyyat məsələləri" monoqrafiyasının müəllifi V.Ağazadə Həsən Səbri Ayvazovun "Əsarət qurbanları: Əbəveynlərə ibrət" hekayəsi haqqında yazır ki: "Hekayənin mükəmməl nümunəsi olan əsərin mövzusu XIX əsrin sonu, XX əsrin əvvəllərində İslam və türk dünyası üçün xarakterik olan real həyat hadisələrindən götürülmüşdür" [9, s. 109].

Ədəbi nümunələrdə sözügedən dövrün fəlsəfi və ictimai-siyasi fikrinin əksi məsələləri göstərir ki, istər maarifçi, istərsə də tənqidi realizm heç də keçmiş həyatla bağlı olmayıb, müasir həyatın özündən doğur. Bu ədəbiyyat milli gerçəkləri təsvir və təhlil edir. Maarifçi və tənqidi realist ədəbiyyat təsvir predmeti etibarilə eyni mövzulara müraciət etsə də, janr-üslub xüsusiyyətlərinə görə fərqlənir. Maarif və cəhalət, gerilik və mədəni həyat, qaranlıq keçmiş və işıqlı gələcək qütblərini qarşı-qarşıya qoyan maarifçilərin əsərləri daha çox faciəvi və dramatik çalar kəsb edir. Həyatdan alınma süjetlərə müraciət edən yazıçılar ən çox hekayə və dram janrlarına üz tuturdular. Abdulla Şaiq "Vəzifə", "Özü bilsin, mənə nə", "Əsəbi adam", Süleyman Sani Axundov "Qatil uşaq", "Qan bulağı", "Ümid çırağı", "Cəhalət qurbanı" və s. hekayələrdə zamanla geridə qalmış cəmiyyətin təzadına diqqət çəkir, dramatik və faciəvi hadisələrin səbəbini savadsızlıqla bağlayırlar. Məhz yeni dünyagörüşün yaranması maarif çırağını alovlandırır, müsbət idealı təsdiq edir.

Yaradıcılığa XIX əsrin son illərində başlayan Abdulla Şaiqin əsərlərində həm romantizm, həm

də realizm ənənəsini müşahidə etmək mümkündür, A.Şaiqin inqilabdan əvvəl qələmə aldığı hekayələri içərisində “Murad” (1910), “Köç” (1910), “Göbələk”(1912), “Pirin kəraməti” (1912), “Cümənin qəzəbi” (1912), “Şələquyruq” (1913) və s. maarifçi-realizmin xüsusiyyətlərini müşahidə edə bilirik. “Murad” və “Şələquyruq” hekayələrində müəllifin tərbiyəvi-əxlaqi görüşləri önə çıxır. “Murad” hekayəsinin qəhrəmanları bir ailənin övladlarıdır. Müəllif onları bir-birinə qarşı qoymaq deyil, birini digərinin hesabına xoşagəlməz əməllərdən uzaqlaşdırmaq məqsədi izləyir.

“Maarifpərvər realistlər nə keçmişin tənqidinə o qədər aludə, nə də gələcəyin xəyallarına o qədər məftun idilər. Onlar ən çox adi, həyati məişət qayğılarını qələmə alır, gələcəyi yaratmaq üçün hər kəsdən, hər şeydən əvvəl məktəbə müraciət edirdilər. Məktəbi nəinki mədəniyyət, intibah üçün, hətta ictimai quruluşu düzəltmək üçün də əsas vasitə sayırdılar” [10, s. 233].

Maarifçi realistlərdən Süleyman Sani Axundov “Kövkəbi-Hürriyyət”, “Yuxu”, “Qonaqlıq”, “Tutuquşu”, “Qan bulağı”, “Ümid çırağı”, “Cəhalət qurbanı” hekayələrində hürriyyət, elm və təhsilə çağırışları, cəhalətə qarşı çıxışları ilə Azərbaycan ədəbiyyatında önəmli bir mövqeyə sahibdir. Müəllif nağıl texnikasından istifadə edərək hadisə və vəziyyət hekayələri qələmə alır. “Kövkəbi- Hürriyyət” (1905) və “Yuxu” (1905) hekayələrində maarifçiliyin irəli sürdüyü elm və təhsil sahəsindəki tərəqqinin azadlığa və işıqlı dünyaya yol açacağı fikri əsas qatı təşkil edir. Xüsusən, “Yuxu”da hadisələrin bir nağıl təhkiyəsi ilə başlaması yunan mifologiyasından Meduzanı, yapon mifoloji təfəkküründəki baxışları ilə ətrafı daşa çevirən əjdahanı da yada salır. Müəllifin qaranlıq dünyadan işıqlığa çıxmağın yolunu “İrşad”la bağlaması isə hadisələri mif zamanından XX əsrin əvvəllərinə gətirib çıxarır. Süleyman Sani Axundov “Tutuquşu” (1909) hekayəsini də “Yuxu”da olduğu kimi, nağıl təhkiyəsi ilə başlayır. Hekayədə məcazi ifadə vasitəsi olan alleqoriyadan istifadə olunur. Müəllifin “viran olmuş bağ” deyə bəhs etdiyi məmləkətin gələcəyi başqasının dilində oxumaqla deyil, öz ana dilinə bağlılıqla əlaqələndirilir. Azərbaycan klassik ədəbiyyatında alleqoriya üsulu ilə yazılmış əsərlər qədim ənənəyə malikdir. Obrazları rəmzlərlə, alleqorik dillə danışdırmaq Şərq ədəbiyyatının, o cümlədən klassik milli ədəbiyyatımızın xarakterik cəhətlərindən biri kimi dəyərləndirilir. Bu janrın böyük inkişaf yolu keçməsi və dövrü üçün yeni ictimai-siyasi məzmuna malikliyindən danışan zaman qeyd etməliyik ki, klassik ədəbiyyatımızda mükəmməl təmsil janrının əsasını A.Bakıxanov qoymuşdur. Onun bizə məlum olan - «Tülkü və qoyun», «Qurd və ilbiz» və «Yersiz iftixar» təmsillərində cəmiyyətdə mövcud olan, həlli zəruriyyət tələb edən məsələlər ön plana çəkilir, ikiüzlülük, riyakarlıq, lovğalıq, yersiz iftixar kimi cəhətlər kəskin tənqid olunur. S.S.Axundovun “Tutuquşu” və “Yuxu”da nağıl-alleqoriyadan istifadə etməsi sehrli nağıl texnikasını yada salır. Rus ədəbiyyatında M.Svetayevanın “Tələ”, Y.Oleşinin “Üç gombul” əsərlərində də nağıl-alleqoriya bədii mətndə aparıcı xətlərdəndir. Maraqlı haldır ki, rus ədəbiyyatında nağıl- alleqoriya inqilabdan sonrakı bədii nümunələrdə daha geniş yer alırdısa, Azərbaycan ədəbiyyatında S.S.Axundovun əsərləri timsalında əsrin əvvəllərində varlığını göstərir. “Müasir rus ədəbiyyatşünaslığında bu metajanr hadisəsi 1920-1940-cı illər ədəbi materialları əsasında, həm də Avropa təsiri kimi təqdim olunur” [11]. Şərq ədəbiyyatının klassik kanonlarından irəli gələn bu xüsusiyyətlər S.S.Axundovun hekayə yaradıcılığında özünü əksər hallarda büruzə verir.

“Ümid çırağı” və “Cəhalət qurbanı” hekayələrində yetişməkdə olan gəncliyin rastlaşdığı nadanlıq və qadın hüquqsuzluğu problemlərindən bəhs edən S.S.Axundov təhsilini tamamlamaq üzrə olan gəncin dramını onun qan davası qurbanı olması ilə bağlayır. Anasının “ümid çırağı” dediyi gəncin özünün də sabahla, gələcəklə bağlı düşüncələri yarımçıq qalır. Cəhalət qurbanı olan Tamam və Gülbəndin də taleyi o dövrün əksər qadınları kimi sönüb gedir. İnsanlardan qaçıb daima qorxduğu qəbristanlıqda pənah axtaran Tamamın faciəsi fərdi xüsusiyyətini itirir, ictimailəşir.

S.S.Axundovun “Qorxulu nağıllar”ında söz açdığı problem və mövzularda da maarifçi realist baxış aparıcı xətt təşkil edir. “XX əsr maarifçi realist ədəbiyyatda xeyirxah, ədalətli şəxsiyyət konsepsiyası “Qorxulu nağıllar”da Süleyman Sanicəsinə düşünülmüş bir sistem halında nəzərə çarpır. Hekayələrin yığcamlığı, sadə, aydın, cəlbedici, ifadəli tutumu, təhkiyənin gözlənilməz forması....ədibin xeyirxahlıq konsepsiyasının dərkində xüsusi əhəmiyyət kəsb edir” [12, s. 129].

“Əhməd və Məleykə”də təhkiyəçi qismində elm, təhsilə önəm verən, qız övladını da yeni tipli məktəbə göndərən Hacı Səməd çıxış edir. Çarəsizliyin və atasızlığın faciəsini yaşayan Əhməd və Məleykə real dünyanı təmsil edirsə, onlara kömək əlini uzadan səyyah Cəmaləddin nağıl

qəhrəmanlarını və ya dini nağılları xatırladır. S.S.Axundovun da bir yazıçı kimi böyüklüyü onda idi ki, yazılı ədəbiyyatla xalq ədəbiyyatının mövzu və strukturu arasında əlaqəni ustalıqla qura bilirdi. Ümumiyyətlə, “Qorxulu nağıllar”ın strukturunda nağıl poetikası özünü bütün qatlarda doğruldur. Bu isə “Qorxulu nağıllar”ı mövzu, obraz, süjet səviyyəsində bütünləşən mətnin ədəbiyyatşünaslığımızın hər daim diqqətində qalmasını təmin edən əsas komponentlərdəndir.

“Əhməd və Məleykə”də xeyirxah səyyah Cəmaləddin uşaqların həyatını nizama salırsa, “Abbas və Zeynəb”in çərxini döndərən quldur Səfərin qan intiqamı idi. Hacı Səməd nağıllarının niyə qorxulu olması yavaş-yavaş əyan olur. Hekayənin başlanğıcında nağılçının - Hacı Səmədin “quldurlar elmsiz, tərbiyəsiz tayfadan çıxarlar. Heyvanın vəhşisi qurd, pələng və şir olan kimi, insanın da vəhşisi bunlardır. Ancaq təfavütləri odur ki, quldurlar onlardan neçə qat rəhmsiz, insafsız və zalımdırlar” [13, s. 39] təsbiti hekayənin sonunu işarə edir.

S.S.Axundov hekayə içində hekayə yaradır. Bu quruluş müəllifin “Nurəddin” hekayəsində özünü göstərir. “Yaxşılığa yaxşılıq hər kişinin işidir, yamanlığa yaxşılıq ər kişinin işidir” atalar sözünün kontekstində danışılan “Nurəddin” hekayəsi nəsillər arası əlaqədən və ya fərqdən bəhs edir. Analığı Gülpərinin başına açdığı oyunları bağışlayan Nurəddini xilas edən cəhətlərdən biri də onun yeni tipli məktəbdə təhsili ilə əlaqədar idi. S.S.Axundovun Maarifçilik fəaliyyəti onun bütün əsərlərində, xüsusən də hekayələrində qabarıq şəkildə özünü göstərir. Nurəddinin təlim-tərbiyəsinin mükəmməlliyi onun şəxsi keyfiyyətlərinin formalaşmasında əsaslı rol oynayır.

S.S.Axundov bir mütəfəkkir kimi, hər şeydən əvvəl xalq müəllimi, maarif cəbhəsinin mücahidi idi. O, elmi, maarif və mədəniyyəti atəşin bir ürəklə təbliğ edir, bədii ədəbiyyatın da vəzifəsini ən çox bunda görürdü. Odur ki, ədəbiyyata alovlu bir maarifçi kimi gələn Süleyman Sani bədii yaradıcılığının əsas istiqamətini də xalqın maariflənməsi, intibahı və yüksəlişinə doğru yönəltmişdi.

XX əsrdə maarifçi realist hekayə yaradıcılığı sahəsində diqqəti cəlb edən sənətkarlarımızdan biri də Əbdürrəhim bəy Haqverdiyevdir. O, nəsr yaradıcılığında əsasən tənqidi realizm mövqeyindən çıxış etsə də, özünün “Ata və oğul” hekayəsində maarifçiliyin əsas diskurslarından birini - “atalar və oğullar” qarşılaşmasını önə çəkir. Bu qarşılaşmada yazıçı ənənəvi modelə üstünlük verir; ata oğula nisbətən daha müdrikdir. Maarifçi realizmdə isə daha çox yeni nəsil, oğul haqlı görünür. “Əgər orta əsrlər ədəbiyyatında müdrik yaşlılar doğru yolun dəvətçiləri idisə, yeni ədəbiyyatda yaşlılar mühafizəkar, gənclər isə mütərəqqi görüşlü idi. Mütərəqqilər mühafizəkarlara qarşı mübarizə cəbhəsi açmışdılar” [14, s. 41-42]. Bədii nümunələr əsasında deyə bilərik ki, atalar-oğullar modeli maarifçi realist ədəbiyyatda yeni məzmunda və ənənəvi strukturundan fərqli şəkildə, transformasiyaya uğramış halda qarşımıza çıxır. Yaradıcılığında hər zaman sintezə və yeni cərəyanlar içərisində ənənəni yaşatmağa çalışan Ə.Haqveridyev adı çəkilən hekayəsində də prinsipinə uyğun davranır. Burada gənc nəslin haqlı olmasından daha çox, yanlış yolda olmasının şahidi oluruq. Əyləncəyə meyilli, ata vəsiyyətinə etinasız, anaya qarşı davranışında kobud olan oğul sahib olduğu mirası qoruya bilmir və özünün də sonu acınacaqlı bitir. XIX əsrin sonu və XX əsrin başlanğıcında maarifçiliyin milliyyət dünyagörüşü ilə zənginləşməsi Haqverdiyevin hekayəsi üçün də xarakterikdir. Müəllif burada sahib olduğumuz dəyərlərə diqqəti yönəldərək, gəncləri yad axınlara və təsirlərə qarşı davamlı olmağa dəvət edir.

**Nəticə / *Conclusion***

Azərbaycanın fəlsəfi, ictimai-siyasi və ədəbi fikrinin zəngin, həm də mürəkkəb dövrlərindən biri olan XX əsrin əvvəlləri Azərbaycanda sənayenin inkişafı, sinfi ziddiyyətlərin kəskinləşməsi və milli azadlıq uğrunda mübarizələrin geniş vüsət alması ilə səciyyələnir. Bu mərhələ Azərbaycanın həm ictimai-siyasi, həm də ədəbi-mədəni həyatında öz mürəkkəbliyi ilə seçilir. Mədəniyyətin bütün sahələrində olduğu kimi ədəbiyyatda da bu dəyişikliklər özünü göstərmiş və müxtəlif janrlarda əsərlər yazılmışdır.

Bu dövr yazıçılarının yaradıcılıqlarında müraciət etdiyi mövzular XX əsr Azərbaycan ictimai-siyasi həyatından götürülmüş və öz növbəsində əsərlərinin ideyasını təyin edirdi. Avamlığın və cəhalətin, ədalətsizliyin, qadın hüquqsuzluğunun, özbaşınalığın, geriliyin tənqidi bu əsərlərin aparıcı mövzuları hesab olunur.

Məhz bu baxımdan da Azərbaycanın ictimai-siyasi və mədəni həyatında önəmli rolu olan tənqidi realizm özünün spesifik xüsusiyyətləri ilə XX əsrin əvvəlləri Azərbaycan ictimai-fəlsəfi fikrininin tərənnümündə daha çox diqqət çəkir. Həyat həqiqətlərini, tarixi gerçəkliyi və təbəqələşmiş cəmiyyəti özünün əsas predmeti seçən bu ədəbi cərəyan maksimum dərəcədə xalq həyatına yaxınlığı ilə səciyyələnirdi. Tənqidi realizm xalq həyatındakı müxtəlifliyə fəal şəkildə müdaxilə etməklə xəlqilik, vətənpərvərlik, humanizm və millilik prinsiplərinə əsaslanırdı. Bunun da başlıca səbəbləri onun ideya, məzmun, forma və üslub, ədəbi qəhrəman, zaman-məkan və s. baxımından xalq həyatına yaxın olan dəyərli, köklü axtarışları ilə seçilməsi idi. Bu mənada C.Məmmədquluzadə, Ə.Haqverdiyev, Y.V.Çəmənzəminli hekayələri, M.Ə.Sabir satiraları və sair müqabil bədii yaradıcılıq nümunələri XX əsrin əvvəllərində Azərbaycan ictimai-fəlsəfi fikrinin inkişafında böyük əhəmiyyətə malik olmuşdur.

**İstifadə olunmuş ədəbiyyat**

1. Qarayev Y. Seçilmiş əsərləri: [5 cilddə] / Y. Qarayev. Bakı: Elm, c. 2. 2015. 632 s.
2. Axundov, M.F. Əsərləri: [3 cilddə] / M.F.Axundov. Bakı, – c. 3. 1962. 371 s.
3. Mir Cəlal. XX əsr Azərbaycan ədəbiyyatı / Mir Cəlal, F.Hüseynov,Bakı: Maarif, 1982., 427 s.
4. Qarayev, Y. V. Seçilmiş əsərləri: [5 cilddə] / Y. Qarayev. Bakı: Elm, c. 3. 2015. 908 s.
5. Nərimanov, N. Seçilmiş əsərləri / N. Nərimanov. Bakı: Lider, 2004. 496 s.
6. Гальперин, И.Р. Текст как объект лингвистического исследования / И.Гальперин. Москва: Наука, 1981. 140 с.
7. Vəzirov, N. Əsərləri / N.Vəzirov. Bakı: Şərq-Qərb, 2005., 422 s.
8. Məmməd, T. Ədəbiyyat müasir elmi yanaşmalar kontekstində / T.Məmməd.
Bakı: Xan, 2016., 412 s.
9. Ağazadə, V. / "Füyuzat" məcmuəsində ədəbiyyat məsələləri / V.Ağazadə. – Bakı: Elm və təhsil, 2016., 205 s.
10. Mir Cəlal. XX əsr Azərbaycan ədəbiyyatı / Mir Cəlal, F.Hüseynov, Bakı: Maarif, 1982., 427 s.
11. Подлубнова, Ю.С. Метажанры в русской литературе 1920 – нач. 1940-х годов: Коммунистическая агиография и "европейская" сказка- аллегория: /Автореферат диссертации на соискание ученой степени кандидата филологических наук / – Екатеринбург, 2005., ст.26. Портрет в литературе - что это такое, виды, примеры ... Ссылка: http: //classiit.ru > publ > teoria_literatury > portretv_li.. Источник: Справочник школьника: 5–11 классы. Москва, АСТ-ПРЕСС, 2000.
12. Vəlixanov, N. Süleyman Sani Axundovun elmi bioqrafiyası /N.Vəlixanov.Bakı: Elm,1996, 228 s.
13. Axundov S.S. Seçilmiş əsərləri/S.S.Axundov., Bakı: Şərq-Qərb, 2005., 448 s.
14. Məmməd T. XIX əsr Azərbaycan ədəbiyyatı / T.Məmməd. – Bakı: Apostrof, 2010., 62 s.

## ФАКТОРЫ, ОПРЕДЕЛИВШИЕ ВОЗНИКНОВЕНИЕ ПРОСВЕТИТЕЛЬСКО-РЕАЛИСТИЧЕСКОГО НАПРАВЛЕНИЯ В АЗЕРБАЙДЖАНСКОЙ ХУДОЖЕСТВЕННОЙ ЛИТЕРАТУРЕ НАЧАЛА XX ВЕКА

**Ниджат Мамедов**

**Резюме.** В данной статье на повестку выносится один из насыщенных и сложных периодов философской, общественно-политической и литературной мысли Азербайджана начала XX века, который характеризовался развитием промышленности, обострением классовых противоречий и широким распространением борьбы за национальную свободу. Исследуются специфические черты просветительско-реалистического направления, сыгравшие важную роль в общественной мысли и культурной жизни Азербайджана.

**Цель:** исследовать социально-политические, исторические и культурные факторы, определившие возникновение просветительско-реалистического направления в Азербайджанской художественной литературе начала XX века.

**Методология:** системный подход, исторический метод.

**Научная новизна:** исследование влияния просветительско-реалистического направления, сыгравшего важную роль в общественно-политической и культурной жизни Азербайджана тначала XXвека со своими специфическими особенностями

**Ключевые слова:** просветительско-реалистический, общественно-политический, мышление, национально-духовный, самосознание, демократический, возрождение

## FACTORS THAT DETERMINED THE EMERGENCE OF THE ENLIGHTENING-REALISTIC TREND IN THE AZERBAIJANI LITERATURE OF THE EARLY TWENTIETH CENTURY

**Nijat Mammadov**

**Abstract.**This article puts on the agenda one of the rich and complex periods of philosophical, socio-political and literary thought in Azerbaijan at the beginning of the 20th century, which has been characterized by the development of industry, the aggravation of class contradictions and the widespread struggle for national freedom. The specific features of the enlightenment-realistic direction, which played an important role in the social thought and cultural life of Azerbaijan, are being studied.

**Purpose:**To explore the socio-political, historical and cultural factors that determined the emergence of the enlightening-realistic trend in the Azerbaijani literature of the early twentieth century.

**Methodology:** Systematic approach, historical method.

**Scientific novelty:**The study of the influence of the educational-realistic direction, which plays an important role in the socio-political and cultural life of Azerbaijan with its specific features, on the development of the socio-philosophical thought of Azerbaijan at the beginning of the 20th century.

**Keywords:** Enlightening-realistic, socio-political, thinking, national-spiritual, self-consciousness, democratic, revival.

**Rəyçi: f.f.d., dos. Rəşad Əskərov**